# Türkiyədə Azərbaycan Evi açılıb



***Ankara şəhərində Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun nəzdində fəaliyyət göstərən Azərbaycan Evinin rəsmi açılış mərasimi keçirilib.***

Tədbirdən əvvəl Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin rəisi Abdullah Eren və Türkiyə Böyük Millət Məclisinin Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ölkəmizin Ankaradakı səfirliyində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət ediblər. Ulu öndərin büstü önünə tər çiçəklər düzülüb, əziz xatirəsi ehtiramla yad olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, mərasimdə Fuad Muradov, Abdullah Eren, Türkiyə Böyük Millət Məclisinin deputatları, Türkiyə Prezidenti Administrasiyasının Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvü, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADƏHF) sədri, eyni zamanda Ankaradakı Azərbaycan Evinin rəhbəri Aygül Attar, Dövlət Komitəsinin əməkdaşları, Azərbaycan və Türkiyə ictimaiyyətinin tanınmış ziyalıları, elm xadimləri, burada təhsil alan gənclər iştirak ediblər.

Qeyd edək ki, binanın girişində Azərbaycan və Türkiyə Prezidentlərinin Şuşa Bəyannaməsini imzalayan zaman çəkilmiş fotosu yerləşdirilib. Burada “Şuşa” Konqres Mərkəzi, Qarabağ oxu zalı təşkil edilib, Qarabağ oxu zalının içində isə Qarabağ müharibəsində həlak olan şəhidlərimizin hər birinin şəklinin əks olunduğu lövhə və Qarabağ Zəfəri guşəsi yaradılıb. Zəfər guşəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük müharibə zamanı qələbə müjdəli tvitləri xüsusi çərçivələrdə nümayiş etdirilir.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Evinin rəhbəri Aygün Attar ölkələrimiz arasında mövcud dostluq və qardaşlıq münasibətlərindən, Azərbaycan və Türkiyə Prezidentlərinin tarixi Şuşa səfərindən, Azərbaycan Evinin yaradılmasının əhəmiyyəti, məqsəd və vəzifələrindən bəhs edib.

Azərbaycan–Türkiyə dostluq münasibətlərinin tarixinə ekskurs edən Dövlət Komitəsinin sədri Fuad Muradov ölkələrimizin bütün dünyaya örnək olan əlaqələri, II Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olması, mənəvi və siyasi dəstək göstərməsi barədə danışıb. Şuşa Bəyannaməsində Azərbaycan və Türkiyə diasporlarının birgə fəaliyyət göstərməsinin əks olunduğunu, indiyədək bu istiqamətdə əldə olunan müsbət nəticələri, bu sahədə YTB-nin gördüyü işləri yüksək qiymətləndirdiyini nəzərə çatdırıb. Qeyd edib ki, Azərbaycan Evinin qapıları Türkiyədə yaşayan və fəaliyyət göstərən türkdilli xalqların icmalarının da üzünə açıq olacaq.

YTB sədri Abdullah Eren iki ölkə diasporlarının birgə fəaliyyətinin perspektivlərindən danışıb və Şuşa Bəyannaməsini diasporlarımız üçün "Yol Xəritəsi" adlandırıb. "Biz birliyimizi möhkəmləndirdikcə, XXI əsrin yaxın illərində başqa bir Türk Dünyası görəcəyik", - deyə vurğulayıb.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım qardaş ölkənin paytaxtında Azərbaycan Evinin açılmasını diaspor tarixində mühüm hadisə kimi qiymətləndirib.

Mərasim zamanı Adana–Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin sədri Yaqub Buluda, professor, TADƏHF-in İdarə Heyətinin sabiq üzvü Ənvər Həsənoğluna və vəkil Fərhad Azneviyə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı və təşəkkürnamələr təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

***Samirə ƏLİYEVA,***
***“Xalq qəzeti”***